Ədəbiyyat QƏZETİ

24 oktyabr / 2020



# Arzu Kazımqızı Nehrəmli - 50

Hörmətli Arzu xanım, ordumuzun müqəddəs Azərbaycan torpaqlarını işğaldan azad etdiyi bu fərəhli günlərdə sizə yubiley təbriki göndərmək xüsusi rəmzi məna daşıyır. Sizin keçirdiyiniz şərəfli həyat və yaradıcılıq yolu, fərdi taleyiniz milli dövlətçilik tariximizin bir parçası kimi əlamətdardır. Həyat yoldaşınız hərbi təyyarəçi, baş leytenant Yusif Yaqub oğlu Vəliyev 1992-ci ildə vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak olduqdan sonra siz həyatınızı onun sevimli yadigarı Zübeydəyə, yaradıcılığınızı isə Azərbaycan əsgərinin bədii abidəsinin ucaldılmasına həsr etmisiniz. Sizin yazdıqlarınız bədii sözün mükəmməl nümunələri olmaqla yanaşı, yaşanılmış və yaşanılan ömür yolunun sərt taleyin mənəvi heykəli kimi maraq doğurur və yadda qalır. Yaradıcılığınız bir də ona görə qiymətlidir ki, canını Vətənə fəda etmiş əsgərə məhəbbətin möhtəşəm obrazını yaratmısınız. Bu, Azərbaycan ədəbiyyatı üçün fərqli bir hadisədir. Bənzərsiz yaradıcılığınızın necə böyük ictimai və milli dəyər daşıdığını qisası qiyamətə qoymayan yaşadığınız günlərin qələbə əhval-ruhiyyəsi bir daha təsdiqləyir.

Bədii və elmi yaradıcılığınızın sağlam təməli tarixinizdə misilsiz yeri olan bir məkanda, Nehrəm kəndində qoyulub. Mədəniyyət və ədəbiyyat tariximizin nadir ocaqlarından olan bu kənddə anadan olub, burada orta təhsili yüksək qiymətlərlə başa vurmusunuz. İlk yazılarınız da orta məktəbdə oxuduğunuz illərdə nəşr edilib. Bakı Dövlət Universitetində bakalavr, magistratura və doktorantura təhsilini bitirdikdən sonra tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almısınız. Kitab mədəniyyəti tariximizdən bəhs edən tədqiqatınız çərçivəsində bir monoqrafiya, onlarla elmi və publisistik məqalə nəşr etdirmiş, Türkiyə, Rusiya və Qazaxıstanda mötəbər elmi konfranslarda iştirak etmisiniz.

Müntəzəm olaraq respublika, eləcə də Türkiyə mətbuatında müxtəlif janrlı yazılarla çıxış edirsiniz. 1997-ci ildə nəşr olunan ilk kitabınız ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Dil və üslub tərzinə, həyat faktlarının ifadə orijinallığına görə fərqlənən və öz tərcümeyi-halınızdan gələn nəsr yazılarınız da vəzndən, qafiyələrdən, bəndlərdən azad edilmiş şeir kimi oxunur. Kitablarınız haqqında mətbuatda nüfuzlu elm və ədəbiyyat adamlarının müsbət rəyləri çap edilib.

Əllidən artıq şeirinizə musiqi bəstələnib.

Hörmətli Arzu xanım, Sizi yubileyiniz münasibətilə təbrik edir, bədii və elmi yaradıcılığınızda sizə yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**